# Oman mətbuatında Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu haqqında məqalə dərc olunub

**Oman Sultanlığında geniş oxucu kütləsinə malik olan "omanobserver.om" saytında Bakıda baş tutan Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu haqqında məqalə dərc edilib.**

AZƏRTAC xəbər verir ki, Diasporla İş üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin və Dünya Azərbaycanlı Alimlər Birliyinin təşkilatçılığı ilə keçirilən forumun Omandan olan iştirakçısı, "Royal Conservatory of Music and Art"ın həmtəsisçisi Dr. Səidə Xəlilovanın tədbirlə bağlı təəssüratları məqalədə əks olunub.




Qeyd edilib ki, forumun əsas məqsədi Azərbaycanın təhsil sektorunun inkişafı üzrə potensial təşəbbüslərin öyrənilməsi üçün aparıcı elm adamlarını bir araya gətirmək, eyni zamanda xaricdə yaşayan alim və akademiklər, təhsil alan tələbələr arasında əlaqələri gücləndirməkdir. Sentyabrın 9-dan başlayaraq 3 gün davam edən forum çərçivəsində alimlərin Azərbaycanın işğaldan azad olunmuş şəhərlərinə səfərləri xüsusi vurğulanıb. Yeni fəaliyyətə başlamış Qarabağ Universiteti ilə gələcək əməkdaşlığın perspektivləri də məqalədə şərh olunub.

Azərbaycan.- 2024.- 18 sentyabr (№203).- S.12.